

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 114 (24.251)

25 iyun 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## “Heydər Əliyev adına təqaüd”ün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının ali təhsil müəssisələrində ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsində əyani formada təhsil alan, təhsildə yüksək nailiyyətləri olan 100 (yüz) nəfər tələbə üçün “Heydər Əliyev adına təqaüd” təsis edilsin.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən təqaüd Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına 3000 (üç min) manat məbləğində birdəfəlik verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 iyun 2023-cü il*

## Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyin buraxılış mərasimi keçirilib













İyunun 24-də Heydər Əliyev adına Hərbi Liseyin 23-cü buraxılışı münasibətilə tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kursantları salamlayıb, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Səlahiyyətli nümayəndə Heydər Əliyev adına Hərbi Liseyin növbəti buraxılışı münasibətilə kursantları təbrik edərək vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycanda milli ordu quruculuğunun əsasını qoyub, siyasi və dövlətçilik fəaliyyətinin bütün dövrlərində peşəkar hərbçi kadrların hazırlanmasına xüsusi diqqət yetirib.

*“Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin yolunu uğurla davam etdirərək ordumuzun döyüş qabiliyyətinin artırılması və peşəkar komandan-zabit heyətinin formalaşdırılması sahəsində ardıcıl tədbirlər görür”*, – deyən Fuad Nəcəfli Vətən müharibəsində qazanılan zəfəri dövlət-xalq-ordu birliyinin məntiqi nəticəsi kimi dəyərləndirib. Qeyd edib ki, Vətən müharibəsində Naxçıvan Hərbi Liseyinin də məzunları böyük qəhrəmanlıq və şücaət göstərib, bacarıqlı komandirlər kimi ən çətin döyüş tapşırıqlarını yerinə yetirib, Azərbaycanın zəfər salnaməsinə öz adlarını qızıl hərflərlə yazdırıb, şəhid, qazi olublar. Vurğulanıb ki, Naxçıvandan Şuşayadək zəfər yolu keçən hərbçilərimizin, eləcə də bütün ordu birliklərimizin istifadə etdiyi peşəkar döyüş taktikası dünya hərb tarixində

Ardı 2-ci səhifədə









yenilik kimi bu gün qabaqcıl ali hərbi məktəblərdə öyrənilir.

Səlahiyyətli nümayəndə məzunları təbrik edib, onlara ali hərbi məktəblərdəki tədris illərində uğurlar arzulayıb.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Elşad Həsənov buraxılış mərasimində çıxış edərək hərbi liseyin məzunlarının Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirdiyini vurğulayıb, göstərilən diqqət və qayğıya görə, hərbi liseyin şəxsi heyəti adından dövlətimizin başçısına minnətdarlıq edib.

Heydər Əliyev adına Hərbi Liseyin məzunu Röyal Rzazadə bildirib ki, Heydər Əliyev adına Hərbi Liseyin kursantları olaraq Vətənimizin xoşbəxt gələcəyi və müstəqilliyimizin qorunub saxlanması yolunda var gücümüzlə çalışacaq, ali hərbi məktəblərdə təhsilimizi yüksək səviyyədə davam etdirəcək, istənilən döyüş tapşırığını yerinə yetirməyə daim hazır olacağıq.





Sonra kursantlara attestat və hədiyyələr təqdim edilib.

Kursant Anar Məmmədli təhsil ocağının rəmzi kötüyünə xatirə lövhəsi vurub.

Orkestrin müşayiəti ilə “Hərbi lisey marşı” ifa edilib, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçib.

Liseyin müəllimləri və məzun valideynləri ilə görüşən Fuad Nəcəfli hərbi liseyin buraxılışı münasibətilə təbriklərini çatdırıb, onlara uğurlar arzulayıb.

Sonra Ümummilli Lider Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirilib, liseydəki muzeyə və tədris şəraitinə baxış olub.

**“Şərq qapısı”**



## Naxçıvanda sosial qayğıya ehtiyacı olan 1250 ailəyə bayram sovqatları verilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqəti və tapşırığı ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Qurban bayramı ərəfəsində Naxçıvanda yaşayan sosial qayğıya ehtiyacı olan 1250 ailə üçün ərzaq bağlamalarından ibarət yardım təşkil olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyevin iştirakı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yaşayan aztəminatlı, o cümlədən şəhid və qazi ailələri üçün gətirilmiş bayram sovqatları 6 avtomobillə ünvanlara yola salınıb.

**Xəbərlər şöbəsi**

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Nazirlər Kabinetinin 2023-cü il 1 iyun tarixli Qərarı ilə “Məhkum edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları”nda dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən tibb müəssisəsinin rəyinə əsasən nəzarət subyektinə tibbi yardım göstərilməsi zərurəti olduqda, barəsində inzibati həbs növündə tənbeh tədbiri tətbiq edildikdə, barəsində həbs növündə qətimkan tədbiri seçildikdə, nəzarət subyekti alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə ixtisaslaşdırılmış tibb müəssisəsinə və ya psixi pozuntusu ilə əlaqədar psixiatriya stasionarına yerləşdirildikdə elektron nəzarət vasitəsi nəzarət subyektinin üzərindən icra məmurunun (probasiya üzrə) əsaslandırılmış Qərarı ilə müvəqqəti çıxarılır.

Nazirlər Kabinetinin 2023-cü il 9 iyun tarixli Qərarı ilə “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 2018-ci il 26 may tarixli, “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin ştat cədvəlinin təsdiq edilməsi haqqında” 2018-ci il 22 iyun tarixli, Qərarında dəyişikliklər edilməsi barədə” və “Bir sıra təşkilatların, publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan bəzi hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” 2022-ci il 7 fevral tarixli qərarlarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müvafiq Sərəncamına əsasən “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin Nizamnaməsi” və “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin ştat cədvəlinin təsdiq edilməsi haqqında” qərarları ləğv edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 14 iyun tarixli Qərarı ilə “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə”nin və “Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Nazirlər Kabinetinin 2017-ci il 7 mart tarixli Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə görə avtomobil nəqliyyatı vasitələri sürücülərinin hazırlanması və onların ixtisaslarının artırılmasını həyata keçirən tədris müəssisələrinin siniflərində sənəd nümunəsi olaraq təqdim olunan “mal-nəqliyyat qaimələri” “elektron əmtəə-nəqliyyat qaimələri” ilə əvəz edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın təsdiq edilməsi haqqında” 2007-ci il 5 sentyabr tarixli, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 8 dekabr tarixli, “Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2013-cü il 23 yanvar tarixli, “Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin ştat strukturunun təsdiq edilməsi haqqında” 2013-cü il 12 iyul tarixli, “Naxçıvan Muxtar Respublikasının ərazisində əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası”nın təsdiq edilməsi barədə” 2022-ci il 5 sentyabr tarixli qərarlarında dəyişiklik edilmiş, “Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidmətində qulluq keçən xüsusi rütbəsi olan işçilərin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi normalar ilə təmin edilməsi normaları”nın təsdiq edilməsi barədə” 2011-ci il 10 fevral tarixli “Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinin daxili intizam Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 30 sentyabr tarixli, “Naxçıvan Muxtar Respublikasına səfər edən İran İslam Respublikası vətəndaşlarının viza tələbindən azad edilməsi haqqında” 2019-cu il 26 noyabr tarixli qərarları və 2022-ci il 9 sentyabr tarixli Sərəncamı ləğv edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyində edilmiş dəyişiklik nəzərə alınaraq Nazirlər Kabinetinin 2023-cü il 19 iyun tarixli Sərəncamı ilə muxtar respublikada mövcud olan yay otlaqlarından istifadə üçün müraciət edən fermer və sahibkarlar arasında bölgüsünə, yaylaq sahələrinə köçürülməsi işinin təşkilinə, yarana biləcək çətinliklərin həll edilməsi və otlaqlardan səmərəli istifadəyə nəzarəti təmin etmək məqsədilə yaradılmış komissiyanın tərkibində dəyişiklik edilmişdir.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Orqanik Naxçıvan” publik hüquqi şəxsin yaradılması ilə əlaqədar Nazirlər Kabinetinin 2023-cü il 22 iyun tarixli Sərəncamı ilə Babək rayonunun Pircuvar massivində yerləşən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin istifadəsində olan 50,01 hektar torpaq sahəsi Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin istifadəsinə verilmişdir.

*Bu il Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamına əsasən ölkəmizdə geniş qeyd olunur, Onun əziz xatirəsi ehtiramla yad edilir. Çünki Sərəncamda da qeyd olunan* ***"Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir"*** *reallığı əsrimizin deyil, yaşanacaq əsrlərin tarixi gerçəkliyidir. Müasir, müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi silsilə tədbirlərlə ölkəmizin digər bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yad edilir, elmi-praktiki konfranslar, mədəni-kütləvi tədbirlər keçirilir, Onun tükənməz siyasi irsi tədqiq və təbliğ olunur. Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsi, xüsusilə ötən ay müqəddəs ziyarətgaha çevrilib. Ümummilli Liderin hələ sağlığında Azərbaycanda yaradılmış ilk muzey olan Heydər Əliyev Muzeyi dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini təqdim və təbliğ edən siyasi-ideoloji mərkəz funksiyasını daha fəal yerinə yetirib.*

**İcmal**

# Müasir Azərbaycan Heydər Əliyev ideyalarının, millilik fəlsəfəsinin təntənəsidir

## *Bu, bir əsrin deyil, yaşanacaq əsrlərin tarixi gerçəkliyidir*

### *Ümummilli Liderin yüzillik yubileyi dahi şəxsiyyətin müstəqilliyə gedən yolun əsasını qoyduğu Naxçıvanda möhtəşəm tədbirlərlə qeyd olunub*



Mayın 6-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Naxçıvanda, ümumilikdə, 80-ə yaxın ölkədən və 23 təşkilatdan 140-a yaxın diplomatın və hərbi attaşenin iştirakı ilə "Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda konfrans keçirilib. Tədbirdə çıxış edənlər Azərbaycan xalqının rifahı, ölkəmizin müstəqilliyinin möhkəmlənməsi və davamlı inkişafı istiqamətində yorulmaz fəaliyyətindən danışıblar. Müasir Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmasında, dövlətimizin müstəqil xarici siyasət strategiyasının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini vurğulayıblar. Qeyd olunub ki, Heydər Əliyevin xarici siyasət strategiyası bu gün Onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və yeni-yeni hədəflərə istiqamətlənir. Bildirilib ki, Ermənistanın işğalçılıq siyasəti və dekonstruktiv mövqeyi səbəbindən Naxçıvan Muxtar Respublikası 30 ilə yaxın müddətdə blokada şəraitində qalıb. Zəngəzur dəhlizinin açılması ilə həm blokadaya son qoyulacaq, həm də muxtar respublika özünün tranzit-nəqliyyat imkanları ilə bütün bölgənin iqtisadi inkişafına töhfə verəcək.

Mayın 10-da Heydər Əliyev Sarayında Azərbaycan xalqının Ümummilli Lideri, dünya şöhrətli siyasətçi, müdrik dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli deyib ki, bu gün müstəqil Azərbaycanın uğurla inkişaf etdirilməsi məhz Heydər Əliyev siyasi xəttinin bəhrəsidir. Fuad Nəcəfli Ulu Öndərin Sovetlər Birliyi dövründən başlayaraq ölkəmizin inkişafını təmin etmək üçün həyata keçirdiyi tədbirlərdən, eyni zamanda Sovet İttifaqının ölkəmizə qarşı repressiyalarından bəhs edib. Bildirilib ki, 1969-cu ildən etibarən dahi rəhbər Azərbaycan Sovet Sosialist Respublikasının inkişafı istiqamətində fədakar fəaliyyət göstərərək bütün sahələr üzrə sürətli inkişafa nail olmuşdur. Tarix sübut etdi ki, O həmin dövrdə də Azərbaycan Respublikasının müstəqilliyi üçün çalışıb. Qeyd olunub ki, 1982-1987-ci illər Ulu Öndərin həyatında xüsusilə vacib idi. ***"Sovet İttifaqında hakimiyyət iyerarxiyasının ən yüksək mərhələlərinə yüksəlmiş ikinci bir azərbaycanlı yox idi"***, – deyən səlahiyyətli nümayəndə bildirib ki, o dövrdə də Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə mərkəzdən ayrılan vəsaitin əsas hissəsi Azərbaycanın inkişafına yönəldilirdi. Eyni zamanda mənfur qonşularımız və onların havadarları dəfələrlə Azərbaycan, eləcə də türk soylu millətlərə qarşı müxtəlif təxribatlara əl atır, bu təxribatların hər birinin qarşısı Ulu Öndər tərəfindən ustalıqla alınırdı. Ulu Öndər məhz sovet imperiyasının ermənipərəst siyasətilə sona qədər mübarizə apararaq, bu ikili siyasətə etiraz əlaməti olaraq vəzifəsindən istefa etdi.

Səlahiyyətli nümayəndə Ulu Öndərin Bakıya, oradan isə Naxçıvana qayıtmasından, taleyüklü qərarlar qəbul etməsindən, muxtar respublikanı işğaldan qurtarmasından, yenidən hakimiyyətə gələrək ölkənin hərbi, iqtisadi, mədəni cəhətdən inkişaf etdirilməsi uğrunda atdığı addımlardan, bu istiqamətdə keçirdiyi görüşlərdən danışıb. Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu siyasi xətti uğurla davam etdirir. 30 ildən artıq davam edən Qarabağ konflikti kökündən həll olunub: ***"Vətən müharibəsindən sonra yaranmış daha bir reallıq isə respublikamızda böyük bir infrastruktur layihəsi olan Zəngəzur dəhlizi layihəsidir. Bu layihə həm regional, həm lokal, həm də kontinental mənada çox böyük bir təsirə malikdir. Bu mənada, Naxçıvan Muxtar Respublikası üçün də Zəngəzur dəhlizi çox böyük perspektivlər açır".*** Səlahiyyətli nümayəndə Ulu Öndərin siyasi ardıcılları kimi qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirəcəklərini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov Ümummilli Liderimiz Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurucusu kimi misilsiz xidmətlərindən danışıb. Qeyd edilib ki, dahi rəhbərin əsasını qoyduğu siyasi xətt hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndərin dəfələrlə öz təsdiqini tapmış siyasi kursunun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov bildirib ki, Ulu Öndərin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Digər çıxışlarla yanaşı, tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevin həmin gün Şuşada səfərdə olarkən Naxçıvanla bağlı söylədiyi fikirlər tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Tədbir möhtəşəm konsertlə yekunlaşıb, Səlahiyyətli nümayəndə səhnə arxasına keçərək kollektivlə söhbət edib, xatirə şəkli çəkdirib.

Mayın 10-da Naxçıvan Muxtar Respublika Stadionunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə təşkil olunan konsertdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, on minlərlə muxtar respublika sakini iştirak edib. Konsertdən əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Şuşadan xalqa müraciətində Naxçıvanla bağlı fikirləri geniş ekranda videoyazı vasitəsilə tamaşaçıların diqqətinə çatdırılıb. Stadionda quraşdırılan böyük ekranlarda Ümummilli Lider Heydər Əliyev haqqında "Əsrin xəyalı" adlı kompozisiyalar, dahi şəxsiyyətin videoyazıları, Azərbaycanın elm, sənət, idman və mədəni zənginliklərini əks etdirən kadrlar yayımlanıb. Eyni zamanda 1500 dronla Ulu Öndərin portreti, xarıbülbül, buta, üçrəngli Dövlət Bayrağımız və digər simvollar səmada əks etdirilib, geniş bayram atəşfəşanlığı olub. Milli geyimli oğlan kürə içərisində olan simvolik xarıbülbülü səlahiyyətli nümayəndə Fuad Nəcəfliyə təqdim edib. Tanınmış sənətçilərin təqdim etdiyi möhtəşəm konsert proqramında proyeksiya xəritəsi, akrobatika, işıq-lazer göstəriləri, rəqs və ümumi dekor imkanları ilə müasir səhnə texnologiyaları birləşərək təsirli foto keçidləri və ən əhəmiyyətli unudulmaz təcrübə yaradılıb.

Mayın 25-də "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və milli dövlətçilik məsələləri" respublika elmi konfransı keçirilib. Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, Ümummilli Liderin həyat və fəaliyyəti hər zaman Azərbaycan xalqına və dövlətinə xidmət etmək olub. Səlahiyyətli nümayəndə dahi şəxsiyyətin ölkəmizə rəhbərliyinin hər iki dövründə çətinliklərə baxmayaraq, Azərbaycanın inkişafı istiqamətində gördüyü işlərdən ətraflı bəhs edib. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının ağır vəziyyətdə olmasından, mənfur qonşularımızın keçmiş Dağlıq Qarabağda olduğu kimi, Naxçıvana da hücumlar təşkil etməsindən danışan Fuad Nəcəfli bu vəziyyətdə Naxçıvan Muxtar Respublikasının xilaskarının məhz Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin olduğunu vurğulayıb.

***"Dahi şəxsiyyətin siyasi fəaliyyətinin Naxçıvan dövrü müstəqil dövlətimizin əsas dayaqlarını təşkil edir"***, – deyən səlahiyyətli nümayəndə bu dövrdə Naxçıvanın işğal təhlükəsindən qurtulması, bir sıra mühüm qərarların qəbul olunmasından, Ulu Öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışının xalqımıza, Azərbaycana uğurlar gətirməsindən geniş danışıb. Səlahiyyətli nümayəndə deyib: ***"Bu gün Azərbaycanda aparılan siyasət də məhz Ulu Öndər Heydər Əliyev siyasətidir. Bu siyasət Müzəffər Ali Baş Komandan tərəfindən uğurla davam və inkişaf etdirilir. Heydər Əliyev Fondunun, başda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə dünyanın müxtəlif bölgələrində, dövlətlərində ümumbəşəri irs sayılan abidələrə olduqca diqqət və qayğı göstərilməkdədir. Bu, əlavə olaraq Azərbaycana beynəlxalq arenada geniş imkanlar yaradır. Bundan yüz illər ötsə də, Azərbaycan xalqı Ümummilli Liderimizin irsini, fəaliyyətini, həyatını heç zaman unutmayacaq".***

ADA Universitetinin rektoru, professor Hafiz Paşayev fenomenal şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, uzaqgörən, praqmatik siyasətindən bəhs edib, Azərbaycanın bugünkü uğurlarının təməlində Heydər Əliyev ideyalarının və siyasətinin dayandığını bildirib. Qeyd olunub ki, dahi şəxsiyyətin əsasını qoyduğu dövlət və ordu quruculuğunun məntiqi nəticəsinə İkinci Qarabağ müharibəsində bir daha şahid olduq. Professor Ulu Öndərlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşüb, dahi liderin Amerikada keçirdiyi görüşlərdə Ermənistanın işğalçılıq siyasətini ifşa etməsindən, ölkəmizi uğurla tanıtmasından, təmsil etməsindən, ölkəmizə xarici investorların cəlbi istiqamətində gördüyü işlərdən, Ümummilli Liderin Azərbaycan-Amerika münasibətlərinin yaxşılaşmasında göstərdiyi səylərdən danışıb.

Konfransda Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə çıxışlar edilib, sonra möhtəşəm konsert olub.

### *Naxçıvanın sosial-iqtisadi inkişafı istiqamətində atılan əhəmiyyətli addımlar bu diyarın azad iqtisadi zonaya çevrilməsinə hədəflənmiş iqtisadi-siyasi strategiyadır*

Cari ilin ötən dövrünün Naxçıvanda iqtisadi artım tempinə nəzər salsaq görərik ki, sənayedə zəruri xammalın və enerji resurslarının fasiləsiz təmin olunması məqsədilə 4 ayı ərzində 62 sənaye və kənd təsərrüfatı təyinatlı dövlət və özəl müəssisələr fəaliyyətə başlayıb, 33 yeni layihənin yaradılması üzrə işlər aparılır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bank, kredit təşkilatları və Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına, ümumilikdə, 114 milyon 960 min 100 manat kredit verilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,7 faiz və ya 19 milyon 53 min manat çoxdur.

Son dövrlərdə ödənilən verginin həcmində və vergi daxilolmalarında özəl sektorun payının artması xüsusi əhəmiyyət kəsb edir. 2023-cü ilin 4 ayında ötən ilin eyni dövrü ilə müqayisədə vergi daxilolmaları üzrə 15 milyon 17 min manat və ya 41,7 faiz artım olub. Bu artım yeni qeydiyyatdan keçmiş vergiödəyicilərinin, obyektlərin, əlavə dəyər vergisi ödəyicilərinin sayında və digər sahələrdə də izlənilməkdədir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində özəl sektorun Ümumi Daxili Məhsuldakı payı 88 faizi ötüb. İqtisadiyyat naziri Naxçıvanda sərbəst və şəffaf biznes mühitinin yaradılması, investisiya qoyuluşlarının, həmçinin vergi, satınalma proseslərinin şəffaflaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinin sahibkarların Naxçıvana marağını artırır. Hazırda "Orqanik Naxçıvan" brendinin formalaşdırılması, təbii məhsulların istehsalı, emalı, bazara yol tapması və ixracının təmin olunması, iri sənaye müəssisələrinin yaradılması, nəticədə, yeni iş yerlərinin açılması ilə əhalinin məşğulluq imkanlarının daha da artırılması əsas hədəflər sırasındadır. Naxçıvan olduqca yüksək dağ-mədən sənayesi, duz və digər faydalı qazıntı yataqlarına, həmçinin günəş enerjisi potensialına malikdir. Muxtar respublikada istehsal olunacaq enerji daxili tələbatı ödəməklə yanaşı, böyük ixrac imkanlarına da malikdir. Bütün bunlar sahibkarlar və investorlar üçün yeni üfüqlər açır. Bu istiqamətdə görülən işlər çərçivəsində Naxçıvanda mühüm enerji layihələrinin reallaşdırılması, yeni iş yerlərinin açılması, sahibkarlığa və sahibkarlara dəstək mexanizmi prioritet sahə kimi diqqətdə saxlanılır. May ayında muxtar respublikada həyata keçirilən islahatlar, sosial-iqtisadi tədbirlər də bunu deməyə əsas verir.

Mayın 15-də Naxçıvan Muxtar Respublikasında 2023-cü ilin ilk 4 ayının yekunları ilə bağlı müşavirə keçirilib. Aid mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin iştirak etdikləri müşavirədə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin gördüyü işlər və sosial-iqtisadi göstəricilərə dair hesabat verib. Hesabat məruzəsində büdcə proqnozlaşdırılması, büdcəyə vergi daxilolmaları, sahibkarlara verilən güzəştli kreditlər, "yaşıl enerji" layihələri çərçivəsində görülən işlər, dövlət orqanlarında innovativ texnologiyaların tətbiqinə diqqət yetirilib. Həmçinin suvarma suyu təminatı sahəsindəki mövcud vəziyyət və problemlər, kənd təsərrüfatı, vətəndaş qəbulu və müraciətləri sahəsindəki vəziyyət və digər bir sıra mövzular geniş müzakirə olunub. Bununla bağlı aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları rəhbərlərinin çıxışları olub.

Sonra nöqsanlar və qarşıda duran vəzifələrdən danışılıb, qarşıdakı hədəflərlə bağlı aidiyyəti üzrə tapşırıqlar verilib.

Mayın 16-da altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan olunub. Ümummilli Liderin 100 illiyi ölkəmizdə və onun ayrılmaz bir parçası olan Naxçıvanda geniş qeyd edilir, Onun əziz xatirəsi ehtiramla anılır. Ulu Öndərimizin əsasını qoyduğu siyasi, iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Sonra Azərbaycan dövlətinin və xalqının xilaskarı, Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ardı 4-cü səhifədə

Sessiyanın gündəliyinə uyğun olaraq əvvəlcə “Naxçıvan Muxtar Respublikasının 2022-ci il büdcəsinin icrası haqqında” Naxçıvan Muxtar Respublikası Qanunu səsə qoyularaq qəbul edilib. Naxçıvan Muxtar Respublikasının 2022-ci il büdcəsinin icrası gəlirlər üzrə 197968088 manat, xərclər üzrə isə 605869766 manat məbləğində olmaqla təsdiq edilib. Sonra “Toxumçuluq haqqında” və “İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında” Naxçıvan Muxtar Respublikası qanunlarının ləğv edilməsi ilə əlaqədar qanun layihələri deputatların müzakirəsinə verilərək təsdiq edilib, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası qanunu qəbul olunub.

Sessiyada gündəlikdə duran dördüncü məsələnin müzakirəsi zamanı bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 26-cı maddəsinə əsasən Ali Məclisin deputatları sırasından – 16 saylı Qıvraq Seçki Dairəsindən seçilmiş deputat İbrahimov Anar Adil oğlu səsvermə yolu ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini seçilib.

Anar İbrahimov onun namizədliyini irəli sürüb, dəstəklədikləri üçün deputat həmkarlarına təşəkkür edərək deyib: “Naxçıvan Muxtar Respublikası, o cümlədən onun ali qanunverici orqanı olan Ali Məclis Ümummilli Liderimizin siyasi irsinin ən vacib və dəyərli təsisatlarından biridir. Bu mənada, Ali Məclisin siyasi nüfuzu məhz Ulu Öndərin 1991-1993-cü illərdə Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdəki fəaliyyətləri ilə bağlıdır. Əmin edirəm ki, qarşıdakı fəaliyyətimdə bu şərəfli məqamı daim diqqətdə saxlayaraq hərəkət etməyə çalışacağam. Ötən ilin sonunda ölkə Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutu yaradılıb. Bu, Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında bir yenilikdir, eyni zamanda siyasi sistemimizin təkmilləşdirilməsinə xidmət edir. Artıq mərkəzi hakimiyyət Naxçıvanda daha əlçatandır. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi mühitin sağlamlaşdırılması, problemlərin müəyyənləşdirilərək sistemləşdirilməsi, onların həlli üçün resursların səfərbər olunması istiqamətində iş aparılır. Ali Məclis də bu istiqamətdə həyata keçirilən tədbirlərə öz töhfəsini verəcək”.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul olunduqdan sonra altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyası öz işini başa çatdırıb.

Mayın 18-də Naxçıvan regional “ASAN xidmət” mərkəzinin açılış mərasimi keçirilib. Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev iştirak ediblər. Tədbirdə məlumat verilib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan “ASAN xidmət” mərkəzləri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı ilə yaradılıb. Ümumilikdə, ölkə üzrə 26-cı mərkəzdir, 360 xidmətlə Naxçıvan sakinlərinə şəffaf, operativ, nəzakətli qaydada xidmətlər göstərəcək. Ümumilikdə, burada 11 nazirlik, dövlət komitəsi, eyni zamanda bank, sığorta və digər funksional xidmətlər sakinlərin xidmətində olacaq. Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan 465 min vətəndaşın əhatəsində olan mərkəz ərazi məhdudiyyəti olmadan “bir pəncərə” prinsipi ilə fəaliyyət göstərəcək. Ən əsası bu yeni mərkəzin açılışı həm də yeni iş yeri deməkdir. Burada əksəriyyəti gənclərimiz olan 228 sakin işləyəcək. Eyni zamanda vətəndaşlara 45 könüllü xidmət edəcək.

Mayın 24-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Bakıda keçirilən 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi sərgilərində iştirak edən Kənd Təsərrüfatı və İqtisadiyyat nazirliklərinin əməkdaşları, sahibkarlar və ailə təsərrüfatçıları ilə görüşüb, onları sərgilərdə fəal iştirakına görə təbrik edib, sərgidə iştirak edən ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Naxçıvan stendinə xüsusi maraq göstərməsini qürurverici hal kimi dəyərləndirib. Məlumat verilib ki, ümumilikdə, 31 ölkədən 479 şirkətin iştirak etdiyi, 9 ölkənin isə milli stendlərlə təmsil olunduğu sərgilərdə ilk dəfə Naxçıvan Muxtar Respublikasının ayrıca pavilyonu yaradılıb və “Orqanik Naxçıvan” brendi uğurla təqdim olunub. Naxçıvanın təbii məhsullarının böyük maraqla qarşılandığı sərgi muxtar respublikada aqrar sahəyə investisiyaların artırılmasında stimul kimi dəyərləndirilib. Görüşdə Naxçıvanda kənd təsərrüfatı və istehsal sahələrində prioritetlərin müəyyənləşdirildiyi və ilkin islahatların aparıldığı vurğulanıb. Qeyd edilib ki, iqlim dəyişikliyi və digər təsirlər fonunda yeni innovasiyaların tətbiqi şərtdir. Yaxın günlərdə aqrar sahədə institutlaşdırma işləri aparılacaq, Naxçıvanın orqanik məhsullarının sertifikatlaşdırılması, bazarda öz yerini alması üçün ciddi marketinq işlərinin aparılması və ixracın dəstəklənməsi məqsədilə ardıcıl işlər görüləcək.

Görüşdə sahibkarların və ailə təsərrüfatçılarının təklifləri dinlənilib, onlar “Orqanik Naxçıvan” brendi ilə kooperativ iştiraka dəvət edilib.

Ölkənin aparıcı maliyyə institutu və real sektorun aparıcı qüvvəsi olan “PAŞA Bank” Naxçıvanda yeni biznes üfüqlərini müzakirə edib. May ayının 26-da Naxçıvan Biznes Mərkəzində “Naxçıvanda yeni biznes üfüqləri: sahibkarlıq potensialı və inkişaf perspektivləri” mövzusunda keçirilən konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək Naxçıvanda sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlardan danışıb. Bildirib ki, Azərbaycan üçün əlamətdar olan “Heydər Əliyev İli” ndə Naxçıvanda digər sahələrlə yanaşı, iqtisadiyyat və sahibkarlıq sahələrində də canlanma müşahidə olunur. Şəffaf mühitin formalaşdırılması, kölgə iqtisadiyyatı, monopoliya və inhisarçılığın aradan qaldırılması məqsədilə aparılan islahatlar nəticəsində iqtisadi artım təmin edilib. Vurğulanıb ki, Naxçıvanda azad biznes mühiti formalaşır. Zəngəzur dəhlizinin reallaşdırılması Naxçıvanın logistika mərkəzi kimi imkanlarını daha da genişləndirir. Türkiyə ilə yeganə quru yolu Naxçıvan üçün Zəngəzur dəhlizinin perspektivlərini daha da artırır.

“PAŞA Bank”ın idarə heyətinin sədr müavini Bəhruz Nağıyev tədbirin təşkil edilməsində əsas məqsədin sektorlararası dialoqun yaradılmasına kömək etmək, əlçatan və effektiv maliyyələşmə mexanizmlərini nəzərdən keçirmək olduğunu bildirib. Qeyd olunub ki, məqsəd bu sahələrdə dəyərləndirmələr aparmaqla ehtiyac meyarlarını təyin etmək, maliyyə dəstəyi göstərməklə iqtisadi inkişafa təkan verməkdir.

Konfransda sahibkarları maraqlandıran məqamlara toxunulub, müzakirə panelində maliyyə əlçatanlığının təmin olunması istiqamətində diskussiya aparılıb və aidiyyəti qurumlar tərəfindən sahibkarları və investorları maraqlandıran məqamlara aydınlıq gətirilib.

Sosial-iqtisadi inkişaf istiqamətində aparılan məqsədyönlü dövlət siyasətinin nəticəsidir ki, muxtar respublikaya yerli və xarici investorların marağı günbəgün artır. Yeni cəlb edilən investisiyalar hesabına fəaliyyəti dayanan müəssisələr bərpa edilir, yeni istehsal sahələri fəaliyyətə başlayır. Kənd yaşayış məntəqələrində də aydın müşahidə olunan bu proses Naxçıvanda yeni iş yerləri yaradılması baxımından da əhəmiyyətlidir. Şahbuz rayonunun Keçili kəndindəki “Çınqıllı” su istehsalı müəssisəsinin də fəaliyyətini daha müasir formada davam etdirməsi buna əyani misaldır. May ayının 13-də bu münasibətlə keçirilən tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə məlumat verilib ki, müəssisənin istehsal gücü gündəlik 42 tondur. Burada 4 istehsal xəttində 8 çeşiddə, 2 növdə – şüşə və plastik qablarda təbii bulaq suyu istehsal olunur. Yüksək keyfiyyətlə qablaşdırılan məhsullar muxtar respublikanın satış və xidmət obyektlərinə, eləcə də ölkə bazarlarına çıxarılır. Müəssisədə Keçili kəndindən 10 sakin işlə təmin olunub. İlin sonuna işçi sayı 30 nəfərə çatdırılacaq.

Muxtar respublikada azad biznes mühitinin formalaşması sahibkarlıq subyektlərinin daha səmərəli fəaliyyətinə və yeni iş yerlərinin açılmasına şərait yaradır. Mayın 27-də “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyətinin tərkibində yeni “Kağız Məhsulları İstehsalı” sahəsi fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinə məlumat verilib ki, müəssisənin yaradılması üçün 2 milyon 570 min 502 manat vəsait ayrılıb. Bu vəsaitin 550 min manatını dövlət maliyyə dəstəyi təşkil edir. Müəssisədə 4 növdə, 8 çeşiddə və müxtəlif ölçülərdə salfet, 1 növdə karton-rulon istehsalı həyata keçirilir. Salfet istehsalı avadanlıqlarının istehsal gücü saatda 300-350 ədəddir. Karton-rulon istehsalı isə tələbata uyğun təmin edilir. Yeni istehsal müəssisəsində 20 nəfər işlə təmin olunub və satışdan asılı olaraq işçi sayının artırılması planlaşdırılır.

Həmin gün yeni yaradılan “Naxçıvan Şərab” Məhdud Məsuliyyətli Cəmiyyətində aparılan tikinti və quraşdırma işləri ilə də tanışlıq olub. Məlumat verilib ki, istehsal gücü saatda 5 min butulka və ya günlük 20 ton məhsul olacaq müəssisədə ilkin olaraq 4 çeşiddə araq istehsal olunacaq. Növbəti mərhələdə isə şərab, viski və konyak məhsullarının da istehsalı nəzərdə tutulur. Müəssisə fəaliyyətə başladıqdan sonra ilkin olaraq 30-a yaxın işçi çalışacaq.

Çoxsaylı tədbirlər çərçivəsində muxtar respublikada yeni turizm-istirahət məkanlarının yaradılması da diqqət mərkəzində saxlanılır. Mayın 15-də Culfa rayonunun Ərəfsə kəndində istifadəyə verilən “Aquamarine Fish House” ailəvi istirahət mərkəzi unikal istirahət məkanlarındandır. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda yerləşən yeni xidmət sahəsinin fəaliyyətə başlaması münasibətilə kollektivi təbrik edib, yaradılan şəraitlə tanış olub. Diqqətə çatdırılıb ki, 4 min kvadratmetr ərazidə özünəməxsus üslubda inşa olunan istirahət mərkəzinin yaradılmasına 500 min manatdan çox vəsait sərf olunub. Mərkəzdə eyni vaxtda 300 nəfərə yüksəksəviyyəli xidmət göstərmək mümkündür. Qeyd edilib ki, mərkəzdə 21 nəfərlik personalın çalışması həm regionlarda yeni iş yerlərinin açılması, həm də buradakı əhalinin rifahının yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyır. Müasir dizayn və abadlıq işləri ilə yanaşı, müəssisənin ərazisində sahəsi 870 kvadratmetr olan hovuza 1000 farel balığı buraxılıb. Bu obyektin istifadəyə verilməsi Naxçıvanın turizm potensialını artırmaq və şəhərimizə gələn qonaqların istirahətinin mənalı təşkil edilməsində və məşğulluqda turizm sektorunun payının artırılmasında mühüm əhəmiyyət daşıyır.

### *Mədəniyyətin və idmanın inkişafına dövlət qayğısı bəhrələrini verir*

May ayı mədəni tədbirlərlə, idman sahəsindəki uğurlarla da yaddaqalan olub. 29-31 may tarixlərdə Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş “Naxçıvan – Bəşəriyyətin Beşiyi” VI Beynəlxalq Rəsm Festivalı keçirilib. Mayın 31-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sərgidə iştirak edib, çıxışında deyib ki, Azərbaycan Respublikasının ən qədim və zəngin guşələrindən olan Naxçıvanda iki ildən bir keçirilən bu tədbir həm dünya incəsənətinə inteqrasiyamızı təmin edir, həm də yerli rəssamların işlərini görmək, onlarla tanış olmaq üçün böyük bir fürsətdir. Sərgiyə baxış zamanı məlumat verilib ki, festivalda müxtəlif ölkələrdən 20, ölkəmizdən isə 32 rəssam iştirak edib. Sərgi salonunda rəssamların festivalda çəkdikləri müxtəlif janr və mövzularda 56 rəsm əsəri nümayiş olunur.

Mayın 13-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının səhnəsində türkiyəli yazıçı Mehmet Ümit Görgülünün psixoloji dram janrında olan “Cibimizdəki dəlilik” əsəri əsasında səhnələşdirilən tamaşa təqdim edilib. Azərbaycan teatr səhnəsində ilk dəfə səhnələşdirilən tamaşanı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Birinci Naxçıvan Kitab Sərgisində iştirak edən ziyalılar, Qazaxıstan Respublikasının incəsənət ustaları və ictimaiyyət nümayəndələri izləyiblər. Səlahiyyətli nümayəndə uğurlu səhnə həllinə görə və Naxçıvan teatrının 140 illiyi münasibətilə kollektivi təbrik edib.

Ayın idman hadisəsi isə “Araz-Naxçıvan” “Zaqatala” komandası ilə qarşılaşıb. 2:0 hesablı qələbə ilə I Divizionda çempionluğunu tam rəsmiləşdirməsi oldu. Matçı Naxçıvanda mərkəzi stadionda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, AFFA-nın prezidenti Rövnəq Abdullayev, digər rəsmi şəxslər və muxtar respublika sakinləri izləyiblər. Oyundan sonra “Araz-Naxçıvan”a doğma meydanda kubok və medallar təqdim olunub. Qeyd edək ki, stadionda Azərbaycan Respublikasının Əməkdar artisti Ədalət Şükürov konsert proqramı ilə çıxış edib.

*Bu gün Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində əldə edilən çoxsaylı uğurlar bir daha Heydər Əliyev ideyalarının yenilməzliyini və alternativsizliyini göstərir. Prezident cənab İlham Əliyevin mayın 10-da “Heydər Əliyev İli”nin siyasi-məntiqi yekunun olan Şuşadan xalqa müraciəti zamanı* ***“Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir”***, – deyərək bir daha təsdiqləmişdir ki, ***“Ulu Öndərin yolu ilə gedərək istənilən sahədə inkişafdan, uğurlardan bəhs etmək olar”.*** *Bunu Ulu Öndərimizin doğma yurdu, Azərbaycanımızın ayrılmaz tərkib hissəsi Naxçıvanın müasir, çoxcəhətli inkişafında da aydın görmək olar.*

**✍ Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Səhiyyə müəssisələrinə işə qəbul edilmiş yeni kadrlarla görüş keçirilib

Muxtar respublikada bütün sahələr kimi, səhiyyə sahəsinə də xüsusi diqqət və qayğı göstərilir, bu sahənin inkişafı istiqamətində mühüm addımlar atılır, tibb işçilərinin təkmilləşdirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Tibb sahəsində kadr hazırlığının təkmilləşdirilməsi istiqamətində aparılan islahatlardan biri kimi tibb işçilərinin müsabiqə yolu ilə işə qəbul edilməsi muxtar respublikada səhiyyənin inkişafına öz töhfəsini verməkdədir.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən tibb işçilərinin işə qəbulu üzrə növbəti müsabiqə



keçirilib. 22-23 may və 31 may 2023-cü il tarixlərdə test imtahanı və klinik tapşırıq mərhələsi olmaqla iki mərhələdə aparılan müsabiqə nəticəsində 1-i həkim, 23-ü isə orta tibb işçisi olmaqla, 24 nəfər ən yüksək bal toplayaraq muxtar respublikanın səhiyyə müəssisələrində işlə təmin edilib.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində yeni işə təyin olunan tibb işçiləri ilə keçirilən görüş zamanı Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov muxtar respublika səhiyyəsində aparılan əsaslı islahatlardan və səhiyyənin inkişafına göstərilən dövlət qayğısından danışaraq bildirib ki, bu gün Naxçıvan səhiyyə sistemində aparılan əsaslı islahatlar və kadr potensialının təkmilləşməsi əhalinin sağlamlığının təmin olunmasına verilən dəyərin və göstərilən qayğının bariz nümunəsidir.

Qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün səmərəli fəaliyyətin önəmini qeyd edən Samiq Sadıxov bildirib ki, peşəkar kadrlar uğurun zəminidir. Səhiyyə sistemi qarşısında qoyulan vəzifələrdən biri də budur ki, insanlar tibbi yardımı yerlərdə ala bilsinlər, hər bir müayinə və tibbi müdaxilə üçün Naxçıvan şəhərinə, başqa yerlərə getmək məcburiyyətində olmasınlar. Muxtar respublikada artıq belə şərait yaradılıb. Rayon mərkəzi və kənd səhə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulub, tibbi avadanlıqlarla təchiz edilib və həmin avadanlıqlarda işləyə biləcək kadrlar yetişməkdədir.

Müvafiq vəzifəyə təyin edilmiş, əmrləşdirilərək iş yerlərinə göndərilən yeni kadrlara tapşırıq və tövsiyələrini verən Samiq Sadıxov onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda müsabiqə yolu ilə yeni işə qəbul edilən tibb işçiləri minnətdarlıq ediblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Jurnalist araşdırması*

## Süleyman Dəmirələ dedim ki, istəyirəm ilk görüşümüzdə Heydər Əliyevə general olduğumu bildirməyim

*Yazı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü, Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 105-ci ildönümünə həsr olunur.*

Onlar özləri haqqında danışmağı sevməzlər. Mediaya danışmağı heç sevməzlər. Ona görə yox ki, bu onlar üçün nə zamansa bir məhdudiyyət olub. Həm də ona görə ki, bu, keçmiş xüsusi təyinatlı komandan üçün ordu, Vətən və müqəddəs peşə qarşısında məsuliyyət məsələsidir. Bir də axı biz nə vaxtsa həyata keçirilmiş hər hansı bir məxfi əməliyyatı müzakirə etməyəcəkdik ki. Amma söhbətimizdə məxfi detalların olmamasını da istisna etməmişdim. Ona ünvanladığım bəzi suallara cavabında gülümsəyərək – gəlin bunun üzərindən keçək, – deməsi də sonradan düşüncələrimdə yanılmadığımı bir daha mənə hiss etdirmişdi. Hətta söhbətin əvvəlində bəzi məsələlər haqqında müəyyən qədər danışacağını da zarafatla söyləməkdən çəkinməmişdi. Əslində, elə bu "müəyyən qədərlər" mənə bəs edirdi. Çünki söhbətin içərisində dahi Heydər Əliyevlə birgə müstəqilliyin ilk illərində Naxçıvanla bağlı xatirələr də vardı. Heç zaman, heç bir yerdə rast gəlməyəcəyimiz xatirələr. Və bu görüşün təşkili üçün artıq iki ay bundan əvvəl qollarımızı çırmalamışdıq. Düzdür, istefada olan general-leytenantın bu görüşə razılıq verib-verməyəcəyi üçün əvvəlcədən bir az narahatlığımız vardı. Amma şükürlər olsun ki, bir az axtarışlarımızın sayəsində müsahibimizin Ankarada yaşadığını dəqiqləşdirmişdik, həta müəyyən vasitələrlə istəyimizi də çatdırmışdıq. Artıq razılıq alınmış, görüş vaxtı da dəqiqləşdirilmişdi. Necə? Bax burada o məşhur cümləni işlətməyin tam yeri var: "Dostlar sağ olsun!"



Ankara, 13 iyun 2023-cü il. Səhər saat 9:30. ***Xüsusi Təyinatlı Qüvvələrin istefada olan polkovniki Şenol Çöklü*** öz avtomobili ilə məni qarşılamağa gəlib. Görüşüb hal-əhval tutduqdan sonra şəhərə doğru hərəkət edirik. Əvvəlcə bir çay içməyi təklif edən Şenol bəy məndən Naxçıvanı, buradakı vəziyyəti xəbər alır. Axı Şenol bəy özü də vaxtilə Naxçıvanda olub, həm də muxtar respublikanın ən çətin vaxtlarında. Milli ordumuzun yenicə formalaşdığı zamanlarda onun da böyük əməyi var. Mən o zamandan bəri Naxçıvanın çox inkişaf etdiyini, yaxın dostların ona salamlarını çatdırıram. Bu haqda onunla sonra söhbət edəcəyik, ancaq indilik generalla görüş saatını dəqiqləşdirmək lazım olduğunu bildirir və telefonla ***Kamal Yılmaz Paşa***ya (Paşa Osmanlı dövründən general rütbəsi daşıyan zabitlərə deyilir) zəng edir. Bir-iki dəqiqəlik danışıqdan sonra üzünü mənə tərəf tutub, Kamal bəy bizi saat 2-də öz evində gözləyir, – deyir. O zamana qədər isə vaxtı itirməyib Abdulla bəylə (Türkiyənin terror və təhlükəsizlik üzrə tanınmış eksperti Abdulla Ağar) görüşə biləcəyimizi deyir. Abdulla Ağarla söhbətimizdə (bu müsahibə "Şərq qapısı" qəzetinin 22 iyun 2023-cü il sayında dərc olunub) onun da vaxtilə xüsusi təyinatlı qüvvələrdən təxris olunduğunu öyrənirəm. Beləliklə, Ankarada görüşdüyümüz müsahiblərimizin hər üçünün ayrı-ayrı dövrlərdə xidmət yolunun Azərbaycandan keçdiyinin və hər üçünün də qəlbində ortaq bir Azərbaycan sevgisi olduğunu bir daha özüm üçün yəqinləşdirirəm.

...Səbuhi bəy, Kamal Paşa zəng edir, artıq çıxmaq vaxtıdır, – deyəndə Abdulla Ağarla söhbətimizi yekunlaşdırıb sağollaşırıq. Polkovnik yolboyu generalın daha bir zənginə cavab verdikdən sonra gedəcəyimiz sitenin (yaşayış kompleksinin) qarşısında bizi mühafizəçilərin gözlədiyini xəbər verir. Təxminən, 20-25 dəqiqədən sonra kompleksin girişində bizi hərbi formalı iki mühafizə əsgəri qarşılayır. Kamal Yılmaz Paşa ilə görüşəcək insanların biz olduğunu öyrəndikdən sonra onları maşınla müşayiət etməyimizi xahiş edirlər. Binanın tam qarşısında enib mühafizəçilərlə birlikdə liftə minib yuxarı qalxırıq. Yolüstü Şenol bəy mənə xüsusi təyinatlı komandanların xidmətdən sonrakı dövründə də dövlət tərəfindən mühafizə olunduğu söyləyir. Budur, artıq mənzilin qarşısındayıq və general bizi qapının astanasında böyük bir təbəssümlə şəxsən qarşılayır. Sanki uzun illər görüşmədiyi doğmalarını qarşılayırmış kimi hər ikimizi bağrına basıb hal-əhval tutmağa başlayır. İlk sözü isə "İnanmazdım ki, indi kimsə məni Naxçıvanda xatırlayar və buralara qədər gələr", – olur.

...Mənzilə keçirik, bizə oturmaq üçün yer göstərir. Naxçıvanda nə var, nə yox, orada mənim çox xatirələrim olub, – deyir. Elə biz də o xatirələr üçün gəlmişik, – deyə cavab veririk.

***Haşiyə:*** General-leytenant Kamal Yılmaz 1940-cı ildə anadan olub. 1990-1994-cü illərdə Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrinin (Bordo bereli) komandanı olub. Türk ordusunda bu elit qüvvələrə dörd il davamlı komandanlıq etmiş (əksəriyyəti iki və ya üç il edib) azsaylı generallardandır. Hazırda istefada olan general-leytenant 1979-cu ildə Beyrutda Türkiyə səfirliyinə xain hücum zamanı "ASALA" üzvlərinin zərərsizləşdirilməsində çox böyük rol oynayıb. Həmçinin müxtəlif illərdə İraq, Suriya və Şimali Kiprdə xüsusi təyinatlıların həyata keçirdiyi ən ağır əməliyyatlara rəhbərlik edib. Məhz onun komandanlığı dövründə xüsusi təyinatlıların şəxsi heyətinin sayı artırılaraq yeni hərbi birləşmələr yaradılıb. Bunun nəticəsində Türkiyənin cənub-şərq sərhədlərindəki coğrafi baxımdan ən keçilməz ərazilərində çox çətin təhlükəsizlik əməliyyatlarını yerinə yetirə bilib.

***– Kamal bəy, Naxçıvana ilk gəlişiniz necə olub? Necə xatırlayırsınız o illəri?***

– Mənim Naxçıvana ilk səfərimin çox maraqlı bir tarixçəsi var. Bundan əvvəl, Bakıda bir neçə dəfə olmuşdum. Xalq Cəbhəsinin hakimiyyətdə olduğu dövr idi. Azərbaycan müstəqilliyini elan etsə də, vəziyyət mürəkkəb olaraq qalırdı. Bir tərəfdən Qarabağda gedən döyüşlər, Sumqayıt hadisələri, bir tərəfdən də hakimiyyətdəki çəkişmələr Azərbaycanın gələcəyinin heç də yaxşı olmayacağını göstərirdi. Bu haqda danışarıq. Amma Naxçıvana gəlişim belə olmuşdu ki, bir gün Baş nazir Süleyman Dəmirəl məni yanına çağırıb Naxçıvana gedəcəyimi söylədi. Bu həmin dövr idi ki, Heydər Əliyev yenicə Naxçıvanın rəhbəri seçilmişdi.

***– Ali Məclisin Sədri seçilmişdi.***

– Bəli, Ali Məclisin Sədri. Süleyman bəy dedi ki, Naxçıvana get, oradakı vəziyyəti öyrən, Heydər Əliyevlə görüş, Naxçıvanın əsas çətinlikləri nələrdir, bununla bağlı işlərlə yerində maraqlan. Mən də Dəmirələ qayıtdım ki, bəlkə, Heydər bəyə general olduğumu söyləməyim, xarici işlərdən bir məmur olduğumu deyim. Rəhmətlik Dəmirəl bir az fikirləşdi, sonra dedi ki, eybi yox, necə istəyirsən, elə et. Bunu əlavə edim ki, həmin dövrdə Bakıda Xalq Cəbhəsi hakimiyyəti ilə Naxçıvan arasında fikir ayrılıqları var idi. Türkiyənin ozamankı prezidenti rəhmətlik Turqut Özalla Elçibəy hakimiyyəti arasında isti münasibətlər var idi. Süleyman Dəmirəlin isə daha çox Heydər Əliyevlə səmimi münasibətləri mövcud idi. Dəmirəlin məni Naxçıvana göndərməsinin bir səbəbi də Türkiyənin Naxçıvanı gözardı etməməsindən irəli gəlirdi. Beləliklə, mən həm Turqut Özal və Elçibəy, həm də Dəmirəllə Heydər Əliyev arasındakı əlaqələri dərindən bilən yeganə şəxs idim. Naxçıvana gəlməmişdən öncə Heydər bəyi heç zaman görməmişdim. Amma onun dövlət idarəçiliyində böyük təcrübəsinin, keçmiş SSRİ-nin rəhbərlərindən biri olduğunu bilirdim.

***– Sonra nə etdiniz?***

– Sonra bizim zabitlərdən birini də özümlə götürdüm, Allah rəhmət eləsin, indi dünyasını dəyişib, rütbəsi səhv etmirəmsə o zaman kapitan idi, hə, kapitan idi, onunla mülki geyimlərimizi geyindik və hərbi təyyarə ilə Ərzuruma uçduq. Onu da deyim ki, digər birliklərdən fərqli olaraq xüsusi təyinatlıların komandanlığının səlahiyyətində hərbi təyyarə də olur. Nə isə gəldik Ərzuruma, oradakı hərbi birləşmələrin birinin komandirinə zəng vurub dedim ki, mənə bir mülki maşın verin. Bir azdan mənim üçün köhnə bir "Toros" ("Renault" Toros) gəldi. Gülür... O zaman belə lüks maşınlar yox idi. Nə isə maşına oturub üzü İqdıra tərəf gəlməyə başladıq. Gəlib çatdıq İqdıra, oradan sərhədə doğru gedirik, elə sərhədə bir az qalırdı ki, maşın xarab oldu, qaldı yolda. Mən dedim ki, daha onun düzəlməsini gözləyən deyiləm, piyada başladıq sərhədə tərəf getməyə. Orada indi keçid üçün böyük bir körpü var. O körpü o zaman yox idi, amma kiçik bir taxta körpü var idi, elə yenicə körpünü keçmişdik ki, gördük iki rus əsgəri qabağımızı kəsdi. İndi biz bunların dediyini başa düşmürük, onlar da bizim dediyimizi. Birtəhər başa salmağa çalışırıq ki, bizim Naxçıvanda qohumlarımız var, onları görməyə gedirik.

***– Əllərində silahları da var idi?***

– Hə, "Kalaşnikov" var idi hər ikisində. Nə isə bunlara nə deyiriksə, bizə "net" deyirlər. Sonradan öyrəndik ki, bu "net" rus dilində "yox" deməkdir. Əslində, üzərimizdə silah da var. Yəni bunları vura da bilərik, amma səs-küy salmaq istəmirdik, istəyirik ki, bir yol tapıb keçək.

***– Kamal bəy, əgər onlar bilsəydi ki, siz türk generalısınız, bəlkə də, çoxdan özlərini itirmişdilər...***

(Gülür...) – Nə isə axırda çəkilib bir tərəfə oturduq. Bunlar da oturdu. Aradan bir az keçdi. Bir də gördüm bizim olduğumuz tərəfə bir "Cip" gəlir. (UAZ-ı nəzərdə tutur S.H.) Maşın gəlib yanımıza çatanda baxdım ki, hərbi formada biri maşından endi, tez ayağa qalxıb buna dedim ki, qardaş, biz Türkiyədən gəlirik, Naxçıvanda qohumlarımızın yanına gedəcəyik, ancaq bu əsgərlər bizi başa düşmürlər. Bir də gördüm ki, gələn adam mənə türkcə cavab verdi. Sevindik. Dedi qohumlarınız harada qalır? Dedik ki, şəhərdə. Dedi, gəlin oturun maşına. Bu adam kim olsa, yaxşıdır?

***– Kim? – deyə dillənirəm...***

***(ardı növbəti sayımızda)***

**Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

***Naxçıvan-Ankara-Naxçıvan***

---

*Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda tədbir təşkil edilib.*

## "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda tədbir keçirilib



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək "Heydər Əliyev İli"ndə Ümummilli Liderin ordu quruculuğu sahəsində gördüyü işlərin və misilsiz xidmətlərin qürurla xatırlandığını qeyd edib.

Mirsənani Seyidov bildirib ki, Ulu Öndərin arzusunu şərəflə yerinə yetirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli Ordumuzun və xalqımızın sarsılmaz birliyi nəticəsində doğma Qarabağımız düşmən işğalından azad edilib. Artıq üç ildir ki, müstəqil Azərbaycan Zəfər Bayramını qürurla qeyd edir.

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublikası üzrə Baş İdarəsinin Naxçıvan şəhər idarəsinin rəisi vəzifəsini icra edən polkovnik-leytenant Anar Aqilov və Vətən müharibəsi qazisi Arif Niftəliyev Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu sahəsindəki tarixi fəaliyyətindən söz açıblar. Qeyd olunub ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı Ulu Öndərin adı ilə bağlıdır. Bu siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir.

Sonda "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" adlı qısametrajlı film təqdim olunub.

**Xəbərlər şöbəsi**

---

## Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılmasından 10 il ötür

*Bu münasibətlə iyunun 24-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şahbuz rayonunun Nursu kəndində tədbir təşkil edilib.*



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Həsən Kərimov Məmməd Arazın klassik poeziyamızın ali ənənələrini yaradıcılığına hopdurmaqla təkrarsız əsərlər yaratdığını, özündən sonra gələn nəsillər üçün poetik körpü rolunu oynadığını bildirib.

Qeyd olunub ki, vətənpərvər şairin yaradıcılığına və şəxsiyyətinə Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük dəyər verilib, dahi liderin qayğısı ilə şairin kitabları çap olunub, ona "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib, müstəqillik illərində Vətənin ən ali mükafatı olan "İstiqlal" ordeni ilə təltif edilib. Bu himayədarlığı davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 27 sentyabr tarixli "Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə şairin yubileyi ölkəmizdə geniş qeyd olunub, yaradıcılığı ətraflı tədqiq olunub, xatirəsi müxtəlif ünvanlarda əbədiləşdirilib, 10 illiyi qeyd edilən ev-muzeyi də şairin yaradıcılığına dövlət tərəfindən verilən dəyərin, göstərilən diqqətin bariz nümunəsidir.

"Məmməd Araz düşüncəsilə Dədə Qorqud səsləməsi" mövzusunda çıxış edən AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, dosent Elxan Yurdoğlu Məmməd Arazın yaradıcılığında şifahi xalq ədəbiyyatının böyük təsirindən danışıb.

Sonra Məmməd Arazın qardaşı qızı Xatirə İbrahimova vətənpərvər şairlə bağlı xatirələrini bölüşüb, şairin Nursuda keçən uşaqlıq və gənclik illərinin təbiətə, doğulduğu el-obaya bağlılığından bəhs edib.

Xalq şairi Məmməd Arazın ev-muzeyinin fəaliyyəti barədə danışan muzeyin direktoru Əzizə Süleymanova bildirib ki, şairin zəngin bədii irsinin qorunub saxlanılmasında, gələcək nəsillərə ötürülməsində mühüm rola malik olan muzeydə hazırda 1200-ə yaxın eksponat qorunub saxlanılır.

Sonda muzeyin kollektivi Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Fəxri fərmanı ilə təltif edilib, Şahbuz Rayon Uşaq Musiqi Məktəbinin şagirdlərindən ibarət sazçalanlar ansamblı tərəfindən Məmməd Arazın şeirləri saz havaları üstündə oxunub, Nursu kənd tam orta məktəbinin şagirdlərinin ifasında Xalq şairinin şeirləri bədii qiraət olunub, tədbir muzeyin ekspozisiyasına baxışla sona çatıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

---

## Külli miqdarda siqaret aşkar edilib



Naxçıvan Baş Gömrük İdarəsinin Əməliyyat və İstintaq İdarəsinə Babək rayon Nehrəm qəsəbə sakininə məxsus yük nəqliyyat vasitəsində aksiz markası ilə markalanmayan külli miqdarda siqaretin satış məqsədilə saxlanılması və qanunsuz satışının həyata keçirilməsi barədə əməliyyat məlumatı daxil olub.

Keçirilən əməliyyat tədbirləri nəticəsində nəqliyyat vasitəsi Nehrəm qəsəbəsi ərazisində saxlanılıb və keçirilən baxış zamanı nəqliyyat vasitəsinin yük yerindən aksiz markası ilə markalanmayan, ümumi sayı 35350 qutu (707000 ədəd) "GAULOISES Blondes" markalı siqaret aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

*Vətənimizin hər qarışı bizim üçün əzizdir, amma qədim Azərbaycanın tarixində və taleyində bəzi şəhər və kəndlərimizin xüsusi yeri olub. Belə yurdlardandır Ulu Öndərin "Qeyrət qalası" adlandırdığı Sədərək. O Sədərək ki illər öncə hər qayası, hər daşı, torpağı naxçıvanlı igidlərin qanı ilə sulandı, amma düşmənə bir ovuc torpaq verilmədi. Həmin yurd ki 30 il öncə torpaqlarımıza göz dikmiş yağı düşmənə ilk zərbə məhz orada endirildi. Həmin Sədərək ki Azərbaycanın ən kiçik rayonu olsa da, həmin illərdə ən çox şəhid verən bölgə oldu.*

Ordum varsa, yurdum var

## Dağların vüqarı, yurdumun qüruru oğullar

Həmin illərdə canını Vətənə sipər edən sədərəkli igidlərin davamçıları Vətən savaşında buradan – Sədərəkdən Qarabağa üz tutub Vətən uğrunda şəhidliyə ucaldılar. İndi Sədərəyə yolu düşən hər kəs onların yol kənarındakı rəsmləri ilə qarşılaşır. İgid Vətən oğullarının rəsmlərini seyr edə-edə Sədərəyə



daxil olanda bir daha anlayırlar bu yurdun niyə Ulu Öndər tərəfindən "Qeyrət qalası" adlandırıldığını. Və həmin illərdə igid oğullarımızın cəsarətindən, igidliyindən qorxuya düşən ermənilər bu qorxunu hələ də unuda bilmirlər. Buna 44 günlük Vətən müharibəsində də qürurla şahidlik etdik. Şahid olduq ki, düşmənlərimiz sərhədindən yüz kilometrlərlə uzaqda olan şəhərlərimizə qədəğan olunmuş silahlardan atəş açsalar da, ən yaxında, Naxçıvanda yerləşən mövqelərimizə bir güllə belə atmağa cəsarət etmədilər. Bu gün fəxrlə yada salırıq ki, respublikamızda ilk milli ordu Naxçıvanda yaradılıb. Müharibənin ən çətin günlərində Ulu Öndərin yurdumuzda olması və o çətin vaxtlarda bizlə birlikdə yaşayıb xalqı birliyə və həmrəyliyə səsləməsi insanların itmiş inamlarını özlərinə qaytardı, onların yaşamaq ümidlərini artırdı. Bu gün dahi rəhbərin qurub-yaratdığı Azərbaycan öz güclü ordusu ilə dünyaya vətənpərvərlik dərsi keçir. Bu xalqın ərənləri öz igidliyi ilə tarixin keşməkeşli dövrlərində düşmənə sinə gərdiyi kimi bu gün də sərhədlərimizi mərdliklə qoruyurlar.

Milli ordunun yaranmasının birinci ildönümündəki paradda iştirak edən Ulu Öndərimiz Heydər Əliyev deyib: ***"Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır. Bu ordunun bir hissəsi də Naxçıvanda yerləşir. Biz bu gün Azərbaycan xalqının gənc və cəsur övladlarının ordu sıralarında xidmət edərək öz bayramlarını qeyd etmək üçün bu meydanda nizamlı sıralarda durduqlarını görürük. Biz milli ordumuzun günü-gündən möhkəmlənməsini, inkişaf etməsini dərk etdikcə bir daha Azərbaycanın müstəqil dövlət olması üçün nə qədər böyük yol keçdiyini yadımıza salır və bunun Azərbaycan xalqı üçün, bugünkü və gələcək nəsillər üçün nə qədər vacib və zəruri olduğunu bir daha hiss edirik. Azərbaycan milli ordusu ağır müharibə şəraitində yaranıb. Qəhrəman oğullarımız Azərbaycanla Ermənistanın sərhəd bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan torpağını, xalqımızın milli azadlığını, toxunulmazlığını müdafiə edərək böyük qəhrəmanlıqlar göstərmiş, bu yolda qurbanlar vermişlər. Azərbaycan xalqı öz milli azadlığını əldə edib. Azərbaycan müstəqil dövlət kimi dünyada tanınıb və heç bir qüvvə xalqımızı bu yoldan geri döndərə bilməz. Lakin biz müstəqil Azərbaycan dövlətini, möhkəmləndirmək, onun hərbi qüdrətini daha da yüksəltmək üçün çox böyük və çətin yol keçməliyik".***

Dahi rəhbərin layiqli davamçısı, ata vəsiyyətini yerinə yetirən xalqımızın böyük oğlu, Ali Baş Komandanımız cənab İlham Əliyev Ulu Öndərimizin qələbədən sonrakı ilk ad günündə Naxçıvanımıza səfəri zamanı deyib: ***"Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan Ordusunda olan hərbi texnika, deyə bilərəm ki, bəlkə də, bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə, Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur. Əlbəttə ki, Naxçıvan Ümumqoşun Əlahiddə Ordunun döyüş qabiliyyəti də yerindədir və uğurlu Günnüt əməliyyatı – üç il bundan əvvəl keçirilmiş əməliyyat bunun bariz nümunəsidir İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***

Belə qürur dolu düşüncələrlə yurdumuzu dövrəyə alan uca dağların başında qurulan postlarda dalğalanan Azərbaycan Bayrağının kölgəsində Vətənin başlandığı nöqtədə dayanmışıq. Düşmənin beş-on metrliyində Vətənə keşik çəkən, dağlara boyverən oğullarla həmsöhbət oluruq. Müzəffər Ordunun əsgər və zabitləri ilə. İllərdir, həsrətini çəkdiyimiz böyük Qələbəni bizə yaşadan, özləri yaddaşlara yazılan igid oğulların davamçıları ilə.

Əslən Kəlbəcər rayonunun Başlıbel kəndindən olan ***mayor Namiq Qədimov*** 20 ilə yaxındır ki, Vətənimizin keşiyində ləyaqətlə dayanan hərbi qulluqçulardandır. Onunla həmsöhbət olduqda dedi: – Ordu quruculuğu Ulu Öndər Heydər Əliyevin özünəməxsus müdriklik və uzaqgörənliklə həyata keçirdiyi, Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyət və ardıcıllıqla davam etdirdiyi mükəmməl strategiyaya əsaslanır. Öz gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanı olan Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlət müstəqilliyinin bərpasından ötən illər ərzində çətin sınaqlardan, sözün həqiqi mənasında, od-alovdan keçmiş, mətinləşmişdir. Və 2020-ci ildə Azərbaycan əsgəri illər öncə səriştəsiz rəhbərlərin əli ilə düşmənə pay verilən torpaqları qanları bahasına geri qaytarmaqla dünyaya vətənpərvərlik dərsi keçdi. Ordumuzun Şuşa şəhərini azad etməsi müasir döyüş dərsi kimi gələcəyin hərbçilərinə öyrədilir. Kəlbəcərin, Ağdamın, Laçının diplomatik qələbə ilə bir güllə belə atılmadan düşməndən alınması isə Ali Baş Komandanın möhtəşəm siyasi qələbəsi idi.

Müsahibim onu da qeyd edir ki, zabit adına layiq görüldüyü gündən ilk xidmətinə Naxçıvandan başlayıb. Muxtar respublikanın müxtəlif yerlərində xidmət edib: – Vətənimizin hər qarışı bizim üçün əzizdir. Naxçıvan isə xalqımız üçün önəmli bir simvoldur. Tarixin fəxrlə vərəqlədiyimiz səhifələrində Naxçıvanın xüsusi yeri var. Milli ordunun ilk qığılcımlarının parladığı və düşmənə layiqli cavab verilən bu diyarda xidmət etmək hər bir əsgər və zabitin fəxridir. Bu zirvədə dayanan hər bir əsgər yaxşı bilir ki, vaxtilə bu dağlarda onlarla Vətən övladı son damla qanına kimi döyüşüb həyatından keçib, amma bir qarış torpaqdan keçməyib. 90-cı illərdə burada yaşananlar özü bir vətənpərvərlik dərsidir. Bu gün düşmən də yaxşı anlayır ki, qüdrətli, müzəffər Azərbaycan Ordusunun əsgərləri keşik çəkir bu dağlarda.

Digər müsahibim ***müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, kiçik çavuş Əli Vəliyev*** 12 ildir, Vətəni qoruyan oğul şərəfini daşıyır. O, Günnüt zəfərinin qazanılmasında da iştirak edən hərbi qulluqçulardandır. Onunla söhbətimizdə dedi: – Vətənə layiqincə xidmət etmək, onun keşiyində dayanmaq hər bir azərbaycanlının borcudur. Hərbçilər isə bunu özlərinə amal seçib. Mən formanı geyindiyim və Vətəni öz canımdan çox sevəcəyimə and içdiyim gündən özümü dünyanın ən xoşbəxt insanı hiss edirəm. Səhər Günəş dağların ardından boylanmazdan öncə yuxudan oyanıb, gecə gün batandan sonra da Vətənimizin sərhədinə keşik çəkən oğul olmaq şərəfinə layiq görüldüyüm üçün hər gün Tanrıya minnətdaram.

***Əsgər Ruslan Məmmədov*** Kəlbəcər rayonunun İşıxlar kəndindəndir: – Orada dünyaya göz açmasam da, böyüklərimin Kəlbəcər haqqındakı söhbətləri ilə böyümüşəm, inanmışam bir gün o yurda dönəcəyimizə. Vətən müharibəsi başlayanda hamımızın ürəyi orada döyünürdü. Xalq bir oldu və biz zəfər qazandıq. İllərdir ki, yurd həsrəti ilə yaşayan ailəmiz artıq Kəlbəcərə qayıtmağa hazırlaşır. Qalib bir ordunun əsgəri olmaq çox qürurvericidir.

Ordubad rayonunun Əndəmic kəndindən olan ***əsgər Fərid Zeynallı:*** – Qədim Naxçı-



vanın keçilməz səddi Sədərəkdə – Vətənin başlandığı yerdə Vətəni qorumaq şərəfinə nail olduğum üçün sevincliyəm. Buradakı xidmətimi həmişə qürurla xatırlayacağam.

Ağdam rayonunun İşıxlar kəndindən olan ***əsgər İslam Məhərrəmov*** ali təhsilini bitirib, Vətən borcunu ödəməyə gəlib. O, on aydan çoxdur ki, xidmətdədir: – Həqiqi hərbi xidmətə çağırılanda Naxçıvan Muxtar Respublikasında xidməti borcumu yerinə yetirəcəyim xəbərini alanda çox sevindim. Çünki bura haqqında yaxın dostlarımdan çox eşitmişdim. Necə gözəl, səmimi insanlarınız olduğunu buraya gələndən sonra gördüm. Kənd camaatı bizimlə öz övladı kimi davranır. Öz əkin-bacalarında yetişdirdikləri meyvə-tərəvəzdən, isti təndir çörəyindən pay tutur bizə. Baxmayaraq ki, dövlətimizin öz əsgərini hər bir qayğı ilə əhatə etdiyini hər kəs yaxşı bilir.

Naxçıvan şəhərindən olan ***əsgər Zeynalabidin Tağızadə*** ali təhsillidir. Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq fakültəsini bitirib:

– Naxçıvanımızın "Qeyrət qalası" adlandırılan Sədərək rayonunda xidmət etmək hər bir gənc üçün şərəflidir. Qarşımızda düşmən, arxamızda isə dağ kimi dayanan xalqımız var. Biz hər dəfə dönüb arxaya baxanda gündən-günə abadlaşan, gözəlləşən bir yurd, hər gün həyətyanı sahələrdə əkin qayğıları ilə məşğul olan insanları görür, ucsuz-bucaqsız taxıl zəmilərində taxılbiçən kombaynların səsini eşidirik. Biz postlarda ayıq-sayıq dayanırıq ki, yurdumuzun insanları rahat, sakit bir ömür sürsün. Əbəs yerə deməyiblər ki, torpağı əkib-becərmirsənsə, qorumağına, qorumursansa, əkib-becərməyinə dəyməz. Hər dəfə Zəfər günümüz yadıma düşəndə onlarla erməni əsgərini təkbaşına məhv edən Mübariz İbrahimovu, əsgəri ilə səngərdə bir döyüşən Polad Həşimovu gözlərim önünə gətirirəm. Və düşünürəm ki, biz qalib, onlar isə öz qanlarında boğulan məğlub bir millətin övladlarıdır. Müzəffər bir ordunun sıralarında müstəqil Azərbaycanımıza xidmət etdiyim üçün qürur duyuram. Qalib bir ordunun əsgəri olmaq, onun Qarabağda məğlub etdiyi ordu ilə üz-üzə dayanıb xidmət etmək mənə ayrıca bir qürur yaşadır.

Hərbçilərimizlə söhbətimi bitirib kəndə qayıdanda Vətən müharibəsi şəhidi, bir vaxtlar bu dağlarda xidmət edən Tağı Abdullazadənin atası ***İlham Abdullayev***lə rastlaşırıq. O öz



bağının meyvələrindən əsgər övladlarına pay gətirib. İlham əmi ilə həmsöhbət oluruq: – Yaxşı xatirimdədir, dahi rəhbər yurda qayıdanda hər kəsin dilində bir kəlmə dolaşırdı: "O gəlibsə, deməli, hər iş yaxşı olacaq". Çünki bilirdilər, yaxşı bələd idilər Vətən övladına. Və elə də oldu. Əvvəlcə rus ordusunun silahlarını bizə təhvil verib yurdumuzu tərk etməsi üçün danışıqlar aparıldı, uzaqgörən insan müdafiə fondu yaradaraq xalqı ordu quruculuğuna kömək etməyə çağırdı. Xalqın öz rəhbərinə inamı, yurd, Vətən sevgisi qalib gəldi. Milli ordu yaradıldı. Kiçik özünümüdafiə qrupları həmin ordunun sıralarına daxil edildi. Sədərəyin müdafiəsi təkcə kiçik bir kəndin yox, bütöv Naxçıvan Muxtar Respublikasının müdafiəsi idi. İndi də elədir. Bir neçə gündür, ermənilər tərəfindən intensiv olaraq Sədərək rayonu ərazisinin atəşə tutulması burada yaşayan heç kimi qorxutmur. Çünki bilirik ki, ordumuz onların cavabını layiqincə verir və hər zaman buna qadirdir.

Artıq axşam düşür, Günəş dağların arxasına çəkilir, qaranlığa qərq olan dağların başında ay işığında dalğalanan Azərbaycan Bayrağına, bu məğrurluq abidəsinə baxıram, Vətənin sərhədinə keşik çəkən oğullar döyüş növbətçiliyini dəyişir. Gecə-gündüz yağış, qar, şaxta, isti fərqi yoxdur, onlar əllərində silah, ürəklərində Vətən sevgisi torpağımızı qoruyurlar, canları, qanları bahasına olsa belə. Çünki bu gün bu postlarda dayanan əsgərlərin damarlarında qanla bərabər, Vətən sevgisi də axır. Onlar Şah İsmayılın, Babəkin, Koroğlunun nəticələri, Poladın, Mübarizin davamçılarıdır. Və çox yaxşı bilirlər ki, bu dövlətin Ulu Öndər kimi qurucusu, öz ordusu ilə 30 illik yolu 44 gündə keçən, dünyaya öz güclü zəkası, siyasi gücü ilə dərs keçən, həm diplomatik yolla, həm də döyüş meydanında düşmənə dərs verən Ali Baş Komandanı var. Düşmənin heç bir təxribatı, heç bir həmləsi bizi qorxuda bilməyəcək. Çünki ordumuz gündən-günə daha da güclənir.

*Ali Baş Komandan cənab İlham Əliyevin dediyi kimi:* ***"Bundan sonra da Ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir. Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmır, hər bir təxribata layiqli cavab verilir, istər hərbi cavab, istər siyasi cavab. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən, ilk növbədə, bizim hərbi potensialımızdır".***

**Ramiyyə ƏKBƏROVA**

**Elan**

Babək "Sirab" ASC-nin rəhbərliyi səhmdarlarının nəzərinə çatdırır ki, 15 iyul 2023-cü il tarixdə saat 11:00-da cəmiyyətin inzibati binasının iclas zalında səhmdarların yığıncağı keçiriləcəkdir.

Gündəlikdə duran məsələlər:

*1.Görülən işlərin illik hesabatı*

*2.Görüləcək işlər barədə.*

***İtmişdir***

"Səyyar Dəstə" ASC-yə məxsus Naxçıvan şəhəri N.Tusi küçəsi 3/2 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin 02.03.2012-ci il tarixdə verilmiş MH-0024558 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Bülbül Quliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 398